Sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsi hesabına Naxçıvanda son illər ideyanı yeni məhsullara və ya xidmətlərə çevrilməsini həyata keçirən bir sıra özəl şirkətlər yaranmışdır. Mövcud ehtiyatlardan maksimum istifadə edərək, regionda mineral sular zavodu, sement zavodu, kərpic zavodu, travertin daş üzləmə zavodu, plastik qapı-pəncərə, gəc istehsalı sexləri, avtomobil zavodu, kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssislərinin yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının qurulması, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmiri sexinin tikintisi, avtomobil yollarının yenidən qurulması, Günəş Elektrik Stansiyasının, Su Elektrik Stansiyasının tikintisi, meliorasiya və irriqasiya tədbirləri, kanalizasiya və sutəmizləyici qurğular, bir sıra yüngül və yeyinti sənayesi müəssisələri yaradılmış, həmçinin bu sahələr üzrə yeni infrastrukturlar fəaliyyətə başlamışdır. Naxçıvanın əsas ixrac məhsulları arasında tanınmış brend kimi ölkəmizi xarici bazarlarda tanıdan "Badamlı" və "Sirab" mineral sularını, yüksək keyfiyyətli tikinti materiallarını, ekoloji cəhətdən təmiz təbii duzu, emal olunmuş ət məhsullarını, spirtli və qazlı aromatlaşdırılmış içkiləri, vafli məmulatlarını, təzə meyvə və meyvə şirələrini misal göstərmək olar.

Naxçıvan MR-də milli iqtisadiyyatın inkişafına təsir göstərən perspektivli sahələrdən biri də beynəlxalq turizmdir. Bu sahədə çox əhəmiyyətli potensial mövcuddur. Tarixi və mədəni abidələr, sanatoriya, kurort sağlamlıq sahələri, göz oxşayan mənzərəli yerləri xarici vətəndaşların diqqətini daha çox cəzb etməkdədir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası əlverişli təbii coğrafi şəraitdə yerləşdiyindən Tarixi İpək yolu və ticarət karvanları bu ərazidən keçməklə Qərb və Şərq sivilizasiyasını birləşdirən bir mərkəzə çevrilmişdir. Naxçıvan zəngin tarixi dövlətçilik ənənələrinə malik olduğundan qədim zamanlardan qonşu ölkələrlə tarixi milli mənəvi dəyərləri və iqtisadi əlaqələri olmuşdur.

Naxçıvanın ixrac potensialının artmasına yay və qış turizm mövsümünün başlanmasında olan canlanmanın da mühüm əhəmiyyəti vardır. Belə ki, regionda təbiət abidələrinə İlandağ, Sarıqaya dağı, Nəhəcir, Əshabi-Kəhf ziyarətgahı, Pəzməri şəlaləsi, Gəmiqaya, hidroloji abidələr, Göygöl, Batabat, Darıdağ istirahət mərkəzi, Duzdağ müalicə mərkəzi, tarixi abidələrin qorunması və orijinallığını saxlanması yerli və xarici turistlərin axınına şərait yaranıb.

Regionda iqtisadi artımın dayanıqlı inkişafı üçün ənənəvi inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçmək əsas prioritetlərdən hesab olunur. Qabaqcıl təcrübəyə əsasən innovasiyalı inkişaf modeli xammal yönümlü ixracdan elm tutumlu sahələrin inkişafına keçidi təmin edə bilər.

Bu istiqamətdə regionda innovasiyalı inkişaf modelinə keçidi zəruri edən əsas amillər kimi aşağıdakıları göstərmək olar:

- Naxçıvan iqtisadiyyatında innovasiyayönümlü sahələrdə intellektual və texnoloji imkanların mövcudluğu;
- innovasiya sistemində mütərəqqi ideya metodlarının tətbiqinə əsaslanan çeşidli məhsulların hazırlanması;
- innovasiya fəaliyyətinin səmərəliliyi məqsədilə elm, tədqiqat, istehsal sahələrində qarşılıqlı dəyər zəncirinin formalaşdırılması;
- ixtisaslı kadrlardan və elmi yeniliklərdən səmərəli istifadə etməklə məhsul və xidmətlərin keyfiyyət göstəricilərinin, eləcə də rəqabətqabiliyyətliliyin yüksəldilməsi;

Regionda müəssisələrin və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması məqsədi ilə regionun yeni texnologiyalarının tətbiqi sahəsində olan problemlərin həll edilməsi, innovasiya infrastrukturunun yaradılması və formalaşması prosesinin həyata keçirilməsi əsas məsələlərdəndir.

Nəticə

Regionda innovasiya prosesinin inkişafının stimullaşdırılmasına yönəldilmiş tədbirlər işlənməli və tətbiq olunmalıdır. Naxçıvan iqtisadi rayonunda innovasiya prosesinin əsas məqsədi region iqtisadiyyatının ayrı-ayrı sahələrini müasir texnologiya ilə təmin etməklə yanaşı, regiona xarici investisiyaları cəlb etməkdir. Bu istiqamətə regionda innovasiya prosesinin stimullaşdırılması məqsədi ilə bir sıra tədbirlər proqramı işlənib hazırlanması zəruridir.

Fikrimizcə, regionda innovasiyaların tətbiqi zamanı müəssisələr bir sıra risklərə məruz qala bilər. Belə ki, bazara çıxarılacaq yeni məhsul və xidmətlərin bazardakı müştərilər tərəfindən qəbul edilməməsi region müəssisələri üçün innovasiya prosesi zamanı əhəmiyyətli maneələr meydana gətirə bilər. Regionda səmərəli fəaliyyət göstərmək istəyən müəssisələr yeni innovasiya yönümlü texnikaları təsərrüfat fəaliyyətinə cəlb etməyə məcburdur. İnnovasiyaların tətbiqi bütünlükdə müəssisələrin texnoloji potensialından tam və səmərəli istifadə edilməsinə gətirib çıxarır.

Naxçıvan iqtisadi rayonunda müasir çağırışlar və yeni təşəbbüsləri nəzərə almaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələrinin, texnoparkların, STEAM mərkəzinin, elektron kommunikasiya sistemlərinin, ASAN xidmətin, sənaye məhəlləsinin yaradılması, regionda qeyri-neft sahələrinin potensialının gücləndirilməsi, iqtisadiyyatın innovasiyalar əsasında inkişafını təmin edəcək.

Regionda yeni biliklər və texnologiyalar, onların sosial-iqtisadi inkişafa səmərəli tətbiqi, innovasiyayönümlü və rəqabətqabiliyyətli məhsulların artırılması bütünlükdə regionun və milli rifahın artırılmasına öz töhfəsini verməkdədir.

Təhlillərə əsaslanaraq elmi texniki tərəqqinin və innovasiyanın müxtəlif istiqamətlərdə araşdırmaların aparılması aşağıdakı nəticələri çıxarmağa imkan verir:

- regionda "Şərur sənaye məhəlləsinin" yaradılmasını sürətləndirmək, formalaşmasında və uğur qazanmasında inkişaf etmiş ölkələrin təcrübəsindən geniş istifadə etmək;
- bütün sahələrdə yeni texnologiya və innovasiyalardan istifadə etməklə məhsuldarlığın artırılmasına nail olmaqla bərabər, bu sahədə elmi-tədqiqat təcrübi işlərdən geniş istifadə etmək;
- regionda innovasiyaların inkişafı istiqamətində yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılması vacibdir;
- regionda innovasiyaların inkişafında investisiya fəallığının artırılmasını həyata keçirmək.

Naxçıvan iqtisadi rayonunda iqtisadiyyatın düşünülmüş siyasət xətti təbii resurslarından səmərəli istifadə etməklə, iqtisadi inkişafa nail olmaq, istehsal sahələrini daha da genişləndirmək, əhalinin həyat şəraitini yaxşılaşdırmaq, məşğulluğu yüksəltmək və ölkə üzrə qarşıya qoyulmuş hədəflərin gerçəkləşməsinə nail olmaqdır.

Ədəbiyyat

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.
2. Abbasov, T., Balayev, R., İbrahimov, F. (2023). İnnovasiyalı inkişaf: Rəqəmsal mühitin təşəkkülü və investisiyalaşdırma problemləri. Monoqrafiya. Bakı: ADPU nəşriyyatı, s. 285.
3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
4. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı". 5 iyun 2023-cü il.
5. Naxçıvan Muxtar Respublikası Ali Məclisi yanında Elmin İnkişafı Fondu. *252 s.*
6. Kotel'nikov, N. V., Nagayeva, A. V. (2014). Analiz i perspektivy razvitiya tekhnoparka kak ob"yekta innovatsionnoy infrastruktury. Izvestiya TPU. T. 324, № 7.
7. https://serqqapisi.gov.az/xeberler/naxcivanda-steam
8. https://asan.gov.az/media/press-releases/
9. https://serqqapisi.gov.az/ 12.07.2023
10. ARDSK – https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Göndərilib: 16.05.2024 Qəbul edilib: 13.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/98-102

Mahsati Asgarova
Nakhchivan State University
esgerovamehseti@ndu.edu.az
https://orcid.org/0009-0001-1899-3325
Mayisa Abbasova
Nakhchivan State University
abbasovamaisa@ndu.edu.az
https://orcid.org/0009-0003-8580-0225

ARE THE BELT AND THE ROAD PROJECT AN ALTERNATIVE TO HISTORIC SILK WAY?

Abstract

Asia, Europe and beyond… This article critically examines whether the Belt and Road Initiative (BRI) constitutes a viable alternative to the historic Silk Way. By synthesizing existing literature and analyzing empirical data, the article evaluates key aspects such as infrastructure connectivity, trade facilitation, cultural exchange, and geopolitical implications. Through a comparative analysis of the historical Silk Road and the contemporary BRI, the paper explores similarities, differences, challenges, and opportunities. It considers the socio-economic, environmental, and geopolitical factors shaping the BRI's effectiveness as a modern-day Silk Way. The findings contribute to a nuanced understanding of the BRI's role in reshaping global trade dynamics and its potential to serve as a transformative force akin to its ancient predecessor. Moreover, the analysis sheds light on the broader implications of the BRI for international relations, regional development, and global governance in the 21st century.

Keywords: *Belt and Road Initiative, Silk Way, Chine, Europe, Asia*

Məhsəti Əsgərova
Naxçıvan Dövlət Universiteti
esgerovamehseti@ndu.edu.az
https://orcid.org/0009-0001-1899-3325
Mayisə Abbasova
Naxçıvan Dövlət Universiteti
abbasovamaisa@ndu.edu.az
https://orcid.org/0009-0003-8580-0225

"Kəmər və Yol" Təşəbbüsü tarixi İpək Yoluna alternativdirmi?

Xülasə

Asiya, Avropa və onun hüdudlarından kənarda... Bu məqalə "Kəmər və Yol" Təşəbbüsünün (BRI) tarixi İpək Yoluna alternativ olub olmamasını geniş şəkildə araşdırır. Mövcud ədəbiyyatı sintez edərək və empirik məlumatları təhlil edərək, məqalə infrastruktur bağlantısı, ticarətin asanlaşdırılması, mədəni mübadilə və geosiyasi təsirlər kimi əsas aspektləri qiymətləndirir. Tarixi İpək Yolu və müasir BRI-nin müqayisəli təhlili vasitəsilə məqalə oxşarlıqları, fərqləri, çətinlikləri və imkanları araşdırır. O, müasir İpək Yolu kimi BRI-nin effektivliyini formalaşdıran sosial-iqtisadi, ekoloji və geosiyasi amilləri nəzərdən keçirir. Tapıntılar BRI-nin qlobal ticarət dinamikasının yenidən formalaşdırılmasındakı rolunun və onun qədim sələfinə bənzər bir transformasiya qüvvəsi kimi xidmət etmək potensialının incəliklə başa düşülməsinə kömək edir. Bundan əlavə, təhlil XXI əsrdə BRI-nin beynəlxalq əlaqələr, regional inkişaf və qlobal idarəçilik üçün daha geniş təsirlərinə işıq salır.

Açar sözlər: *"Kəmər və Yol" Təşəbbüsü, İpək Yolu, Çin, Avropa, Asiya*

Introduction

The Silk Road, an ancient network of trade routes connecting Asia, Europe, and Africa, has long been heralded as a symbol of cultural exchange and economic prosperity. Stretching across vast landscapes, it facilitated the flow of goods, ideas, and cultures, shaping civilizations and economies for centuries. Today, as we stand on the precipice of a new era, the question arises: Does the Belt and Road Initiative (BRI) represent a contemporary reincarnation of this historic Silk Way?

This paper undertakes a critical examination to assess whether the Belt and Road Initiative serves as a viable alternative to its historic predecessor. By delving into existing literature and analyzing empirical data, we aim to evaluate key aspects such as infrastructure connectivity, trade facilitation, cultural exchange, and geopolitical implications. Through a comparative lens, we seek to unearth the similarities, differences, challenges, and opportunities between the historical Silk Road and the modern-day Belt and Road Initiative (Yu, Hong et al., 2021).

In essence, the BRI comprises two core components: the Silk Road Economic Belt and the 21st Century Maritime Silk Road. The former seeks to revitalize ancient land routes connecting China to Europe, while the latter aims to enhance maritime connectivity across Asia, Africa, and beyond. By invoking the legacy of the historical Silk Road, China endeavors to project a positive image and foster trust among nations participating in the initiative (Ruta, 2019).

Are the Belt and the Road Project an Alternative to Historic Silk Way?

"The Silk Road was first mentioned by the German geographer Ferdinand Von Richtofen in the 1870s to express the trade networks connecting the East to the West. It is said that trade activities on the Silk Road started during the Han dynasty of the Chinese state (206 BC-220 AD). However, the road gained its real vitality and importance during China's Tang dynasty (AD 618-907). "The Chinese city of Changan, or Xi'an as it is known today, was the starting point of the fascinating trade route extending to the West" (UNCTAD, 2014).

The historical Silk Road is more of a complex network than a simple land route. It is a set of roads consisting of ports, river markets, towered caravanserais, many camel routes, and mountain pass narrow gorges, desert landmarks that connect China and Rome, two important economic centers in the world, and are faced with constant change. The products of the Silk Road were transferred to many different parts of the world via these routes. These routes; This commercial communication network, which extends from the Russian principalities in the north, Persia and Indus in the south, Constantinople in the west and Xi'an in the east, has connected millions of lives to each other, including distant points such as Southeast Asia and Africa. It is not correct to see the Silk Road as a simple economic camel road, but also as a way of thought and ideas. This path has been the model of globalization, and Silk is only its brand (Hansen, 2012: 10-12).

What is meant by the name Silk Road is the road network that began to take shape at the beginning of this era. At the same time, this network is the network that connects the cultural realms of the Old World, especially the Mediterranean in the west and China in the east. Silk has been a valuable commodity for a long time and has an important place for many nations. It has also been a determining factor in important events, from the recognition of Eastern culture by the West to the transportation of spices and silk products of the East to the West via caravans, to the establishment of trade routes to Europe via China. Silk, which had a durable structure and did not contain harmful insects and worms, was also elastic and had a high value. People who traded this product were making high profits from this product. Other valuable goods other than silk were also transported to the west on the Silk Road (Whitfield, 2004: 14).

China was the only country where silk was produced during the Han period in the third century AD, and in China silk was twice as valuable as linen. Due to this valuable and valuable feature of the Silk Road, there have been struggles for dominance on this interstate route at various periods in history. These struggles often ended in wars. The winners of the wars were not able to dominate the road as much as they wanted because this road was valuable and there was a lot of competition on the road. The most important states that want to dominate the Silk Road are the Chinese, Mongols, Turks and Russians. In addition, although Persians and Arabs wanted to dominate the region, they

were not as successful as other states. As a result, the states struggling for dominance on the Silk Road determined various strategies and continued their power struggle according to these strategies. The Silk Road, which offers excellent cultural and historical diversity and carries the traces of religions, cultures and races living in its geography, has been a trade route connecting Asia to Europe for 2000 years. States that are somehow connected to this path have achieved great development with economic dynamism and liveliness in cities (Whitfield, 2004: 15-16).

Investments under the name of the One Belt and One Road Initiative project, country connections connected to the project, new order trade networks, political and cultural interests are among the important topics of this research. In addition, TRACECA, Baku – Tbilisi – Kars railway, Marmaray, Trans Anatolian Natural Gas-Pipeline project, Trans Asian railway, Economic Cooperation Organization (ECO) network, Black Sea Economic cooperation organization network, North-South European highway (TEM) and railway Projects such as (TER) projects, Eurasia Tunnel, Istanbul 3rd Bridge are also projects that support the One Belt and One Road project (Christopher, 2016: 309).

China, which wants to continue and improve its economic development and welfare level, constantly implements new projects. The main goal of these projects is to improve the economic impact area. China, which believes that its own development as a country will be the development of humanity, underlines at every opportunity that they will continue their high-level foreign expansion initiatives. Although the One Belt One Road Project comes to the fore with large infrastructure projects, it essentially aims to strengthen the connections between Asia and Europe in all its dimensions. In this sense, strengthening trade links also stands out as a priority (Susan Whitfield, 2004). The project was first announced by Chinese President Xi Jinping in Kazakhstan in 2013, and then became official with the action plan announced by the Chinese National Development and Reform Commission in 2015. The initiative, defined as the most comprehensive international economic program of the 21st century so far, aims to strengthen the connections between Asia and Europe through railways, roads, ports, digital infrastructure and energy infrastructure. With the project, China aims to improve the infrastructure of the countries on the route and then strengthen the infrastructure of the connections between these countries to ensure that transportation and trade are carried out more efficiently. In this context, the Chinese Government stated in its policy documents; there are 5 basic elements: policy coordination, strengthening connections, barrier-free trade, financial integration and people-to-people ties. (Hughes, Christopher, 2018: 45).

Although the project was disrupted due to the pandemic, there were countries where it was implemented with concrete work. It was observed that the project largely met the need for economic development in these countries and helped the country increase its capacity in different areas, especially infrastructure. As of 2021, China has signed a total of 202 agreements with 138 countries and 31 international organizations, including Turkey, for the One Belt One Road Project. The majority of the countries participating in the project are low-or middle-income countries. According to the World Bank, 33 of 138 countries are classified as high income and 39 are classified as upper middle income (Dunford, Michael, 2021: 97-98).

As of 2021, the total value of the projects completed and implemented by Chinese companies within the scope of the One Belt One Road Project is said to be 200 billion dollars. According to Chinese sources, when the project is completed, it will reach a total size of between 4 and 8 trillion dollars. At this point, other international organizations have different predictions. For example, the World Bank estimates the total amount of projects already completed, ongoing and in the planning stage as 575 billion dollars. He shares that with the project, transportation times in the corridors on the route will be shortened by 12 percent, trade will increase between 2.7 percent and 9.7 percent, and there will be an average contribution of 3.4 percent to the income of the countries. According to the consulting company Refinitiv, which created an up-to-date database about the project, the number of completed, ongoing or planned projects reached 1,821 as of the first half of 2020. This means that a total value of 2.3 trillion dollars has been reached. Although the project is an open-

ended initiative in terms of duration, it is frequently stated in the statements that it will be completed in 2049, the 100th anniversary of the founding of the People's Republic of China (Soyres et al., 2018).

The project aims for international integration through transportation networks, energy networks and telecommunications. It covers 42 % of the world's GNP, 64 % of the world's population, 40 % of the land, and 75 % of the known energy. China is trying to complete the project in 30-35 years in time for the 100th anniversary of its founding (2049). These two initiatives were later named One Belt, One Road by China. Here, "Belt" refers to the Silk Road Economic Belt and "Road" refers to the 21st Century Maritime Silk Road. By making references to the Historical Silk Road, China invests in its positive image in the memory of world societies. The targeted communication and transportation projects are called "silk road" names: "iron silk road", "land silk road", "sea silk road", "air silk road" and "digital silk road". In this way, China is trying to ensure that world communities understand the project easily and build trust (Dunford, Michael, 2021: 92).

Conclusion

The Silk Road formed the basic structure of integration between the Eastern and Western worlds, not only in commercial terms, but also in cultural, political, economic, military and religious aspects. In this formation, very valuable materials of the Asian continent were transported to Europe through the Silk Road from the early periods of world history and laid the foundation of globalization even today. The transportation of products exclusive to the Asian continent to the west is the cornerstone of many revolutions in the world. In addition, the fact that religions and cultures influenced civilizations thanks to the intercontinental Silk Road dramatically affected the course of world history. Especially in the last decade, China has been a pioneer in the world in production. Factors such as the abundance of resources available to China and the uncompetitive low labor costs in China are the main reasons for this. In this project, which is considered globally, it is an undeniable fact for the project countries that the Modern Silk Road initiative should be taken very seriously.

In conclusion, this paper has delved into the intricate analysis of whether the Belt and Road Initiative (BRI) can serve as a viable alternative to the historic Silk Road. Through a comprehensive synthesis of existing literature and empirical data analysis, we have explored various dimensions of infrastructure connectivity, trade facilitation, cultural exchange, and geopolitical implications associated with the BRI.

Our comparative analysis of the historical Silk Road and the contemporary BRI has unearthed both similarities and differences, highlighting the challenges and opportunities inherent in the modern-day Silk Way. We have observed the socio-economic, environmental, and geopolitical factors that shape the effectiveness of the BRI in reshaping global trade dynamics.

The findings of this study contribute to a nuanced understanding of the BRI's role in the 21st century, portraying it as a transformative force with the potential to significantly impact international relations, regional development, and global governance. By bridging continents and fostering economic integration, the BRI stands as a testament to China's aspirations for global connectivity and cooperation.

As we move forward, it is imperative to acknowledge the complexities and intricacies involved in the implementation of the BRI and address the concerns surrounding transparency, debt sustainability, and environmental impact. By fostering dialogue, cooperation, and mutual understanding among participating nations, the BRI can truly realize its vision of creating a more interconnected and prosperous world.

In essence, while the Belt and Road Initiative may not replicate the historical Silk Road in its entirety, it represents a bold and ambitious endeavor that has the potential to reshape the global economic landscape and foster greater cooperation and understanding among nations across Asia, Europe, and beyond. As we navigate the complexities of the modern-day Silk Way, let us endeavor to harness its potential for the collective benefit of humanity.

References

1. Yu, Hong, Ravi, K., Mishra, and Changchun, H. (Eds.). (2021). The Belt and Road Initiative: Progress, Contributions, and Prospects.
   Accessed: 05.03.2024. https://eng.yidaiyilu.gov.cn/p/86739.html
2. Ruta, M. (2019). Belt and Road Economics: Opportunities and Risks of Transport Corridors. World Bank, p. 159.
3. "Investment Guide to the Silk Road". UNCTAD. (2014), p. 63. Accessed: 05.03.2024. https://unctad.org/publication/investment-guide-silk-road
4. Hansen, V. (2012). The Silk Road: A New History. Oxford University Press, p. 496.
5. Susan Whitfield. (2004). Silk Road: Trade, Travel, War and Faith. British Library, p. 366.
6. Balding, Christopher. (2016). "The Belt and Road Initiative: A New Silk Road for China?" China Economic Review, Volume 40, pp. 309-313.
7. Hughes, Christopher, R. (2018). "China's Belt and Road Initiative: Motives, Scope, and Challenges". The Journal of Contemporary China 27, No. 114, pp. 38-51.
8. Dunford, Michael. (2021). China's Belt and Road Initiative and its Implications for Global Development ACTA VIA SERICA. Volume 6, pp. 91-118.
9. Soyres, François de, Mulabdic, Alen, Murray, Siobhan, Rocha, Nadia, & Ruta, Michele. (2018). How Much Will the Belt and Road Initiative Reduce Trade Costs? World Bank Group.

Received: 10.06.2024 Accepted: 19.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/103-107

Gülnarə Şahmuradova
Azərbaycan Respublikasının Təhsil İnstitutu
gulnara.shahmuradova@mail.ru
https://orcid.org/0000-0003-1997-0317

ŞUŞANIN CABBARI VƏ XANI

Xülasə

Məqalədə Türk dünyasının mədəniyyət paytaxtı, Azərbaycanın incəsənət məbədi Şuşanın yetişdirdiyi dahi şəxsiyyətlərdən, musiqimizin, muğamımızın zirvəsi olan ecazkar səs sahibləri – Cabbar Qaryağdıoğlu və Xan Şuşinskidən bəhs olunur. Onların Azərbaycan muğamı və musiqisinin inkişafındakı xidmətləri ilə yanaşı, bir sıra ölkələrin də musiqi mədəniyyətində oynadığı xüsusi roldan danışılır.

Açar sözlər: *Şuşa, muğam, musiqi, sənətkar, mədəniyyət, incəsənət, ustad*

Gulnara Shahmuradova
Educational Institute of the Republic of Azerbaijan
gulnara.shahmuradova@mail.ru
https://orcid.org/0000-0003-1997-0317

Jabbar and Khan of Shusha

Abstract

The article talks about geniuses raised by Shusha, the cultural capital of the Turkic world, Azerbaijan's temple of art – Jabbar Garyaghdioghlu and Khan Shusha, who are the pinnacle of our music and mugham, owners of wonderful voices. In addition to their services in the development of Azerbaijani mugham and music, the special role played in the musical culture of a number of countries is also discussed.

Keywords: *Shusha, mugham, music, artist, culture, art, master*

Giriş

Türk dünyasının mədəniyyət paytaxtı, Azərbaycanımızın döyünən qəlbi, ecazkar, şəfalı təbiəti, zəngin maddi-mədəni sərvəti ilə bütün azərbaycanlıların qürur mənbəyi olan Şuşa! Vətənimizin dilbər guşələrindən olan bu əsrarəngiz təbiətli yurd Türk dünyasının, həmçinin dünya mədəniyyətinə töhfələr bəxş edən şəxsiyyətləri ilə Xan Şuşinskinin, Bülbülün, Cabbar Qaryağdıoğlunun səsi hər daşına, qayasına hopan, Natəvanın, Vaqifin, Üzeyirin vətənidir. Başı qarlı, vüqarlı dağları ilə də hər bir azərbaycanlı üçün əzəmət qalası olmaqla yanaşı, milli memarlıq üslubu ilə də Cənubi Qafqazın dəyərli mədəniyyət mərkəzlərindən biri kimi seçilir. Belə ki, Şuşa mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə bəxş etdiyi tarixi şəxsiyyətləri, maddi-mədəni irsi, abidələri, tarixi ilə yanaşı, eyni zamanda orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi kimi məşhur olub.

Ümummilli lider Heydər Əliyev 1996-cı il mayın 6-da prezident sarayında Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə demişdir: *"Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycanın daim qorunması, saxlanılması üçün Şuşa şəhərini, qalasını yaradıblar; Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"* (Əhmədov, 2014: 1).

Ümummilli liderimiz Heydər Əliyevin bu sözləri Şuşanın Azərbaycan xalqının, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının tarixində xüsusi yeri olduğunu bir daha vurğulayır. Muğamımızın beşiyi sayılan Qarabağın dilbər guşəsi Şuşa şəhəri əbədi olaraq Azərbaycanın mədəniyyət məbədidir.

Bu torpaq, bu əsrarəngiz şəhər Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu, Cabbar Qaryağdıoğlu, Üzeyir bəy Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Bülbül və digər bu kimi görkəmli şəxsiyyətləri ilə də tarixdə özünəməxsus yer tutur. Şuşa dünyada muğamın beşiyi kimi tanınır. Məhz bu səbədən də Şuşanı "Şərqin Konservatoriyası" və "Azərbaycanın musiqi beşiyi" adlandırırlar.

Şərq musiqisinin məşhur tədqiqatçısı V. Vinoqradov bu əsrarəngiz diyar haqqında yazırdı: *"Şuşada musiqi çoxdur. Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onun yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər"* (Vinogradov, 1938: 1).

İngilis səyyahı və alimləri C. Morye və R. Burter Şuşanın gözəlliyinə, təbiətinə heyran qalmış və onun qədimliyi, tarixi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C. Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R. Burter isə yazır ki, *"Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır*" (Əhmədov, 2014: 1).

Cəsarətlə və əminliklə deyə bilərik ki, Şuşanın Azərbaycana, Şərq dünyasına və dünya mədəniyyətinə verdiyi istedadları saysızdır. Xalq arasında yaxşı demişlər:

– Şuşa sağlamlıq şəhəri, istedadlar məskənidir! Həqiqətən belədir!

Qeyd etdiyimiz kimi, sıldırım qayalar başında, zirvəsində qartalların qıy vurduğu, bulaqlarının musiqi ilə çağladığı füsunkar Şuşa Azərbaycan və dünya musiqi mədəniyyəti tarixində xüsusi yeri ilə seçilən muğam ustadı, ecazkar səs sahibləri olan iki böyük ustadın Cabbar Qaryağdıoğlunun və Xan Şuşinskinin vətənidir.

XIX əsrin dahi, ustad xanəndəsi, Azərbaycan xalq musiqisinin mahir bilicisi, ensklopediyası adlandırılan *Cabbar Qaryağdıoğlu* 1861-ci ildə Şuşa şəhərində dünyaya göz açıb. Onun uşaqlıq illəri doğulduğu "Seyidli" məhəlləsində keçmişdi. Atası boyaqçı olan Cabbar hələ uşaq yaşlarında bu sənəti öyrənməyə çalışırdı. Amma məhəllə uşaqları ilə birlikdə oynadığı zamanlarda gözəl ifası, səsi onun gələcəkdə məşhur xanəndə olacağına əminlik yaradırdı. Uşaq yaşlarında doğma şəhəri Şuşada yerləşən "Qayabaşı"nda, "Ağzıyastı kaha"da, "Qırxpilləkən"də, "Dəlikdaşın" üstündə oturaraq saatlarla azərbaycan xalq muğamlarını və musiqilərini ifa edərdi. Onun bu istedadını görən atası Cabbarı öz istedadının arxasınca getməsinə mane olmadı.

O zamanlar Şuşada Xarrat Qulunun məktəbi kimi məşhurlaşan məktəbdə ilk təhsilini aldıqdan sonra, 10 yaşında şəhər məktəbinə daxil olur və burada dövrünün tanınımış ziyalısı olan Mirzəli Zeynalabdin oğlundan musiqinin sirlərini və fars dilini öyrənmişdir. Onun istedadı müəlliminin də diqqətindən yayınmırdı. Müəllimi bu balaca oğlanın gələcəkdə ustad sənətkar olacağını görürdü. Cabbar 16 yaşında olanda Şuşada müəllimi Mirzəli Zeynalabdin oğlu ilə toya gedir. Bu toyda tarzən Cavadbəyin müşayiəti ilə 16 yaşlı Cabbar "Kürdü-Şahnaz" muğamını oxuyur. Onun bu ifası, zil və ruha toxunan səsi dinləyiciləri deyil, hətta sənətkarları, musiqiçiləri də heyran edir. Cabbarın ifasına məftun olan qocaman xanəndə, ustad sənətkar Hacı Hüsü onun alnından öpərək deyir: "Gələcəkdə bizim yerimizi bu cavan xanəndə tutacaq".

Cabbarın istedadını görən məşhur tarzən Sadıqcan onu özünün rəhbərlik etdiyi sazəndələr dəstəsinə dəvət edir və Cabbar Qaryağdıoğlu bu dəstə ilə bir çox ifalar etmişdi. O, Şuşada "Xandəmirovun teatr salonu"nda təşkil olunan "Xeyriyyə gecəsi"ndə "Heyratı" ifa edirdi.

Cabbar 1901-ci ildə bu teatrın səhnəsində Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə təşkil olunan konsertdə dahi şairlərimiz Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Xurşidbanu Natəvanın qəzəllərini böyük məharətlə və ustalıqla doğma ana dilində ifa edirdi. Onun bu ifasının, muğamatın geniş xalq kütlələri içərisində yayılmasına xüsusi rolu olmuşdur.

Cabbar Qaryağdıoğlu "Mahur"u elə bir ustalıqla, məharətlə ifa edirdi ki, hətta dahi xanəndəmiz Xan Şuşinski "Mahur Cabbar ilə getdi" deyirdi. O, oxuduğu muğamlara və təsniflərə, xalq musiqilərinə öz ifasında ayrı bir hava qatırdı, xalqın sevgisini, diqqətini, heyranlığını qazanırdı. Bu səbədəndir ki, Cabbarın iştirak etdiyi bir sıra konsertlərdə dinləyicilərin, tamaşaçıların təkidi ilə onun ifasına təkrarən yer ayrılırdı.

Onun ifasınada "Bayatı-Qacar", "Ovşarı" muğamı da dinləyənləri muğamın və əsrarəngiz səsin sehrinə salırdı. Ustad xanəndənin "Şahnaz"ı, "Qatar"ı, "Heyratı"sı musiqi xəzinəmizin ən qiymətli incilərindir. Azərbaycanın musiqi, ifaçılıq və xanəndəlik tarixində Cabbar Qaryağdıoğlunun adı böyük məhəbbətlə və ehtiramla çəkilir, xatirəsi hər zaman musiqi, muğamsevərlərin qəlbində yaşayır.

Cabbar Qaryağdıoğlunun qoz ağacı və balıq dərisindən hazırlanmış və konsertlərdə istifadə etdiyi qaval məhşur tarzənimiz Qurban Pirimovun qızı Tamara xanım tərəfindən 1967-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinə hədiyyə edilmişdi. Cabbar Qaryağdıoğlu 1905-ci ildə Gəncə şəhərində ikinci bir musiqi üçlüyü yaradır. Bu üçlük məşhur xanəndə İslam Abdullayevin vasitəsilə tanış olduğu tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvilidən ibarət idi. Ustad xanında "Heyratı"nı 1906-cı ildə qrammafon valına yazdırmışdı.

Onun gözəl, qəlb oxşayan, güclü, əzəmətli səslə ifaları, xalqa daha yaxın olması Cabbarı xalq arasında daha çox sevdirmişdi. Demək olar ki, dövrünün heç bir toyu, muğam gecələri Cabbarsız keçmirdi. Hətta Cabbarın səsi dünyanın bir sıra vokal sənətkarlarının adları ilə yanaşı çəkilir.

Akademik Boris Astafyev, professor Yevgeni Braudo, bəstəkarlardan M. İppolitov, Vladimir Kor Georgixubov, Reynqold Qlier və başqaları Cabbar Qaryağdıoğlu sənətinin vokal ustalığını, böyük sənətini, əsrarəngiz səsini, məharətli ifasını yüksək qiymətləndirmişlər (3).

Cabbar güclü, əzəmətli zənguləli ifaları ilə yanaşı, həzin templi muğamların da mahir ifaçısı idi. O, "Segah"ı ifa edərkən insanı valeh edir, təsirləndirir və sanki Cabbarın səsinin sehrinə qərq olursan. Bunula yanaşı, o, klassik ədəbiyyatı gözəl bilirdi. "Əruzu bilməyəndən xanəndə olmaz", – deyirdi.

Cabbar Qaryağdıoğlu ifaları ilə yanaşı, eyni zamanda yetirmələri ilə ustad sənətkar zirvəsini fəth edib. Onun yetirmələri Azərbaycan xalq musiqisi, muğamları sahəsində hər biri bir inci düzmüş, xalq tərəfindən sevilib-seçilən sənətkarlardır. Seyid Şuşinski, Bülbül, Davud Səfiyarov, Zülfü Adıgözəlov, Xan Şuşinski, Cahan Talışinskaya, Yavər Kələntərli, Mütəllim Mütəllimov kimi görkəmli muğam ustaları məhz Cabbar Qaryağdıoğlunun tələbələri olmuşlar. "Xanəndə olmağım üçün unudulmaz müəllimim Cabbar Qaryağdıoğluna minnətdaram", – deyən Xan Şuşinski ustadının xatirəsini hər zaman yüksək tutur və bunu fərəhlə qeyd edirdi (Şuşinski, 1985).

Ustad xanəndə, muğamlarımızın, xalq mahnılarımızın mahir bilicisi, bəstəkar, əsrarəngiz səs, məharətli ifa sahibi Cabbar Qaryağdıoğlu 20 aprel 1944-cü ildə 83 yaşında dünyasını dəyişib.

Zəngin irsi bu gün yetişən gənc xanəndələrə bir məktəb olan, gözəl səsi və ifaçılıq məharəti ilə xalq arasında sevilən ustad sənətkar Cabbar Qaryağdıoğlunun tələbələrindən olan muğam sənətimizin görkəmli siması, Qarabağ muğam məktəbinin görkəmli nümayəndəsi İsfəndiyar Cavanşirov

20 avqust 1901-ci ildə Şuşada anadan olub. Onu xalq arasında *Xan Şuşinski* kimi tanıyırlar. Xan Şuşinski Qarabağın ən məşhur tayfalarında olan Cavanşirlər sülaləsinə mənsub olan Aslan bəyin ailəsində doğulub (5).

İlk musiqi təhsilini xalq arasında "Segah İslam" kimi tanınan ustad sənətkar İslam Abdullayevdən alıb. Belə ki, balaca İsfəndiyarın səsini məclislərin birində eşidən ustad sənətkar onu özünə şagird götürüb, ona muğamın, xalq mahnılarının sirlərini öyrədib. 12-13 yaşlı İsfəndiyar Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Əbülhəsən xanın vallarını oxudub saatlarla qulaq asaraq, onların ifasının ən incə məqamlarını öyrənməyə çalışıb. Ona "Xan" ləqəbi də məhz Əbdülhəsən xanın ifasında olan "Kürd Şahnazı" ifa etdikdən sonra verilib. Belə ki, bu muğamı müəllimi, ustadı İslam Abdullayevin təkidi ilə Ağdamın Novruzlu kəndində bir məclisdə zilə çəkən İsfəndiyar öz ifası ilə dinləyənləri heyrətləndirib. Onun bu ifası zamanı yerbəyerdən səslər eşidilir: "əsl Xan elə bu imiş ki!". Bu hadisədən sonra ustadı İslam Abdullayev şagirdi balaca İsfəndiyara "bu gündən sən oldun Xan", – deyərək ustad xeyir-duasını verib. Bu gündən artıq İsfəndiyar Xan Şuşinski kimi tanınmağa və el arasında daha da sevilməyə başlayan sənətkar 1920-ci ildə Bakıya gəlib və ifaçılıq fəaliyyətini genişləndirib.

"Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər Xanın ifasında xüsusi yer tutub. O, xalq mahnılarını avazla və şövqlə oxuyaraq, onlara yeni çalarlar əlavə edib. Muğamları, xalq mahnılarını böyük sənətkarlıqla oxuyan və xalqa sevdirən sənətkarın özünün də bir çox mahnıları var. Bu mahnılar çox vaxt xalq mahnıları kimi təqdim olunub. "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnılarının müəllifi və "Şuşanın dağları" mahnısının həm musiqisi, həm də sözləri Xan Şuşinskiyə məxsusdur (Muradova, 2022).

Əvəzolunmaz sənətkarımız Şövkət Ələkbərova ilə birlikdə lentə alınan "Yaylıq" adlı bu duet musiqi tariximizdə ilk duet hesab olunur. Həmçinin simfonik muğamlarda solo hissəni simfonik orkestrin müşayiəti ilə ilk dəfə ifa edən də məhz Xan Şuşinski olub. O, dahi bəstəkarımız Üzeyir Hacıbəylidən başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməyib. Azərbaycan Dövlət Filarmoniyasının nəzdində 1960-cı ildə "Muğam studiyası" yaradan ustad sənətkar gənc xanəndələrə muğamın sirlərini öyrətməklə yanaşı, Azərbaycan Dövlət Musiqi Məktəbində dərs deyib, neçə-neçə muğam ifaçılarının yetişməsində müstəsna xidmətlər göstərib. Həyatı boyu və xalqı tərəfində verilən "Xan" adını layiqincə daşıyan ustad sənətkar, gözəl səs sahibi, məharətli ifaçı, müəllim Xan Şuşinski – İsfəndiyar Cavanşirov 1979-cu ildə vəfat edib və Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilib. Onun musiqi tariximizdə 240 dəqiqəlik lent yazıları bu gün də sevilə-sevilə və heyranlıqla dinlənilir və yeni xanəndələr nəslinin yetişməsinə öz töhfələrini verir (7).

Füsunkar təbiətli, istedadlar ocağı, havası, suyu məlhəm olan Şuşa Azərbaycan adlı bir məmləkətin iqtisadi-siyasi, elmi-mədəni inkişafına bundan sonra da dəyərli töhfələrini verəcək. Çünki bu yurdun torpağı, suyu, havası, ecazkar mənzərəsi istedadların doğulmasında və yetişməsində mühüm əhəmiyyətə malikdir. Şuşanın qaynar bulaqları kimi istedadlı insanları da kükrəyir, çağlayır. 28 illik həsrətdən sonra azad Şuşa bir başqa şövqlə parlayır. Belə ki, 2021-ci il may ayının 12-13 tarixlərində "IV Xarıbülbül Beynəlxalq Folklor Festivalı" və 2022-ci il may ayının 12-14 tarixlərində "V Xarıbülbül Beynəlxalq Folklor Festivalı" böyük təntənə və coşqu ilə keçirildi. Dövlət başçımız, qalib sərkərdə bu festivalda çıxış etdi və incəsənət xadimlərinin çıxışlarını izlədi. Festivalda Azərbaycan muğam və incəsənət ustaları ilə yanaşı, bir çox xarici ölkələrin incəsənət nümayəndələri də çıxış edərək bu festivalın fərqliliyini bir daha nümayiş etdirdilər. Məhz bu səbəbdəndir ki, Şuşada təşkil olunan bu festivala hər il dünyadan olan incəsənət nümayəndələrinin marağı və diqqəti artır (8).

Nəticə

Artıq əminliklə deyə bilərik ki, Xan qızının, Keçəçi oğlu Məhəmmədin, Cabbarın, Xanın, Bülbülün və neçə-neçə dahi şəxsiyyətlərimizin ruhu şaddır. Artıq Cıdır düzündən havalanan Xanın avazı Şuşanın sıldırım qayalarından əsərək, İsa bulağından süzülərək Qarabağımızın və bütöv, azad Azərbaycanımızın hər bir qarışına yayılır.

Ədəbiyyat

1. Əhmədov, E. (2014, 10 iyun). Heydər Əliyev: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir". Xalq qəzeti, s. 4. http://anl.az/down/meqale/xalqqazeti/2014/iyun/375883.htm
2. Vinogradov, V. (1938). Uzeyir Gadjibekov i Azerbaydjanskaya myzika. Moskva, s. 9.
3. Qaryağdıoğlu, C. "Keçmiş Azərbaycan musiqisi haqqında xatirələrim" (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, inventar № 75.
4. Şuşinski, F. (1985). Azərbaycan xalq musiqiçiləri (az.). Bakı: "Yazıçı", s. 176.
5. "Xan Şuşinskinin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı. (2001, 20 iyul). Azərbaycan Respublikasının qanunvericilik toplusu: maddə 508, № 7, s. 1604. Azərbaycan.
6. Muradova, Z. (2022). Şuşa, hər daşı-qayası tarix. Bakı, 416 s.
7. Şuşinski Xan (İsfəndiyar Aslan oğlu Cavanşirov): biblioqrafiya. (2021). Tərt. ed. H. Manafova; elmi red. K. Tahirov; red. E. Nəciyev. Bakı, 188 s.
8. https://a-r.az/az/article/19580

Göndərilib: 24.06.2024 Qəbul edilib: 02.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/108-113

Aysel Asadova
Nakhchivan State University
ayselesedova111@gmail.com
Yusif Efendiyev
Nakhchivan State University
yusifefendiyev2@gmail.com

THE IMPACT OF ENGLISH ON THE DEVELOPING OF COUNTRIES

Abstract

English is the foremost language of global communication, trade, diplomacy, and technology, playing a pivotal role in shaping international relations and economic development. This paper examines the multifaceted importance of English in various aspects of education, technology, employment, and economic growth. Furthermore, it discusses how English proficiency enhances employability, fosters global collaboration in the tech industry, and drives economic growth by attracting foreign investment and enabling participation in the global marketplace. Additionally, the paper explores the role of English in diplomacy, emphasizing its significance in facilitating diplomatic discourse and negotiations. Despite challenges posed to non-English speaking cultures, the global prominence of English underscores its indispensability in navigating the complexities of the modern world. Overall, the paper underscores the critical role of English in advancing education, technology, employment, and economic prosperity on a global scale.

Keywords: *diplomacy, education, economic development, foreign investment, language*

Aysel Əsədova
Naxçıvan Dövlət Universiteti
ayselesedova111@gmail.com
Yusif Əfəndiyev
Naxçıvan Dövlət Universiteti
yusifefendiyev2@gmail.com

İngilis dilinin ölkələrin inkişafına təsiri

Xülasə

İngilis dili qlobal ünsiyyət, ticarət, diplomatiya və texnologiyanın əsas dilidir və beynəlxalq münasibətlərin və iqtisadi inkişafın formalaşmasında mühüm rol oynayır. Bu məqalə təhsil, texnologiya, məşğulluq və iqtisadi artımın müxtəlif aspektlərində ingilis dilinin çoxşaxəli əhəmiyyətini araşdırır. Bundan əlavə, ingilis dili biliyinin məşğulluğu necə artırdığını, texnologiya sənayesində qlobal əməkdaşlığı təşviq etdiyini və xarici sərmayələri cəlb etməklə, qlobal bazarda iştiraka imkan yaratmaqla iqtisadi artıma təkan verdiyini müzakirə edir. Bununla yanaşı, məqalə ingilis dilinin diplomatiyadakı rolunu araşdırır, onun diplomatik müzakirələrin və danışıqların asanlaşdırılmasında əhəmiyyətini vurğulayır. Qeyri-ingilis dilində danışan mədəniyyətlərin qarşısında duran çətinliklərə baxmayaraq, ingilis dilinin qlobal şöhrəti müasir dünyanın mürəkkəbliklərində naviqasiyada onun əvəzsizliyini vurğulayır. Məqalə bütövlükdə qlobal miqyasda təhsil, texnologiya, məşğulluq və iqtisadi rifahın inkişafında ingilis dilinin mühüm rolunu vurğulayır.

Açar sözlər: *diplomatiya, təhsil, iqtisadi inkişaf, xarici investisiya, dil*

Introduction

English is widely known as the most commonly used language worldwide, playing a crucial role in various aspects of our lives. Often without realizing it, we frequently use English to communicate with individuals from other countries. English serves as the universal language connecting people

across the world. English is a compulsory subject in many countries. When traveling around the world, even in developing countries, everyone can easily identify that English serves as the primary mode of communication between locals and foreign visitors in most countries. There are regional languages, like Chinese, that can be easily used to communicate in certain regions like South East Asia. However, in most countries, English is the favored language. The problem is that not only the percentage of people who speak English varies by country, but the level of English spoken by people who claim to speak English also varies. For example, as a business, you might find a higher level of English spoken in the Netherlands or Germany compared to in Italy. This paper tries to prove that learning English is beneficial to the development of countries, mainly because it gives the country access of the international market and removes barriers that would otherwise be imposed by not speaking a common language with another market (Crystal, 2014).

English as a Language Tool for Countries to Access International Markets

